# Regional məsələlər komitəsinin iclası keçirilib



Fevralın 19-da Milli Məclisin Regional məsələlər komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi müzakirə olunub.

Komitə sədri Siyavuş Novruzov əvvəlcə ölkəmizdə fevralın 7-də keçirilən prezident seçkilərində İlham Əliyevin böyük səs çoxluğu ilə qalib gəlməsini Azərbaycan xalqının ona yüksək etimadının və dəstəyinin bariz ifadəsi kimi xarakterizə edib. Komitə sədri Prezident İlham Əliyevin fevralın 14-də Milli Məclisdə andiçmə mərasimindəki proqram xarakterli çıxışını Azərbaycanın gələcək inkişafı ilə bağlı vəzifələri müəyyən edən yol xəritəsi kimi dəyərləndirib.

Gündəlikdəki məsələ ilə bağlı komitə sədri bildirib ki, Ədliyyə Nazirliyinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı 2023-ci il üzrə illik məruzəsi dolğun və əhatəli hazırlanıb. Məruzədə həm bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət, həm də onlara metodoloji yardım üzrə il ərzində həyata keçirilən məqsədyönlü işlər, digər əhəmiyyətli tədbirlər geniş şəkildə əks olunub.

Sonra ədliyyə nazirinin müavini Vilayət Zahirov Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsini təqdim edib.

Vilayət Zahirov 2023-cü ildə Ədliyyə Nazirliyinin bələdiyyələrə inzibati nəzarəti həyata keçirmək və onların fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə gördüyü işlər barədə məlumat verib. O, bələdiyyələrin fəaliyyəti ilə bağlı metodoloji iş və maarifləndirmə, qanunvericiliyin təkmilləşdirilməsi, müraciətlərə baxılması, bələdiyyələrin maliyyə vəziyyətinin yaxşılaşdırılması, bələdiyyə torpaqlarından qanunauyğun, səmərəli istifadə olunması və digər istiqamətlərdə görülən işləri diqqətə çatdırıb.

Qeyd olunub ki, 2023-cü ildə inzibati nəzarət orqanına təqdim olunan 100 430 (o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində - 3 983) bələdiyyə aktı hüquqi ekspertizadan keçirilib, nəticədə 96 363 (96 faiz) aktın qanunvericiliyə uyğun olduğu müəyyən edilib. Qanunvericiliyin tələblərinə zidd olan aktlarla bağlı qanunamüvafiq tədbirlər görülüb. Nazir müavini ötən ildə bələdiyyə fəaliyyəti ilə bağlı vətəndaşların, həmçinin şəhid ailələrinin, müharibə əlili və iştirakçılarının müraciətlərinin təmin edilməsi, xüsusən müharibə veteranlarının və şəhid ailələrinin sosial müdafiəsi, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı görülən əməli işləri diqqətə çatdırıb. O, bələdiyyə vəsaitinin təyinatına uyğun istifadə olunması, bələdiyyə əmlakından istifadədə şəffaflığın təmin edilməsi, korrupsiyaya və digər hüquqpozmalara şərait yaradan halların qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Nazir müavini deyib ki, ümumilikdə 2023-cü il ərzində həyata keçirilən tədbirlər ölkəmizdə bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin olunmasına, yerli büdcə gəlirlərinin artırılmasına, bələdiyyələrin yerli özünüidarəetmə orqanı kimi ictimai nüfuzunun yüksəldilməsinə və digər aktual məsələlərə həsr olunub.

2024-cü ildə ölkəmizdə bələdiyyələrin yaranmasının 25 ilinin tamam olduğunu deyən nazir müavini bununla əlaqədar cari ildə aidiyyəti qurumların iştirakı ilə silsilə tədbirlərin həyata keçirilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Müzakirələrdə çıxış edən komitənin sədr müavini Elşən Musayev, üzvləri Kamran Bayramov, Səbinə Xasayeva, Tahir Rzayev, Cavid Osmanov, Məzahir Əfəndiyev, Əliabbas Salahzadə, Aqil Məmmədov, Nizami Cəfərov və "Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyinin sədri Vüqar Cəfərov məruzənin əhatəli hazırlandığını qeyd ediblər. Onlar bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin, onların maliyyə mənbələrinin dayanıqlığının artırılması, bələdiyyələrin birləşdirilməsi, bələdiyyə müəssisələrinin təsis edilməsi və yerli özünüidarəetmənin digər aktual məsələləri ilə bağlı bir sıra qeyd və təkliflərini bildiriblər.

Ədliyyə nazirinin müavini Vilayət Zahirov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib.

Müzakirələrin sonunda Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi müsbət qiymətləndirilib və Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 20 fevral, № 38.- S.12.